https://doi.org/10.59849/3006-2403.2025.2.135

***Ağa HACIBƏYLİ***
***Azərbaycan Respublikası***
***Müstəqil tədqiqatçı***
***ORCİD-0009-0001-8367-8786***
***agahajibeyli@gmail.com***

# "LEYLADAN MÖVLAYA"
## (Nizami Gəncəvi yaradıcılığında mühüm dünya görüşünün təzahürü)

*Açar sözlər:* Nizami Gəncəvi, Nizami irsi, Leyli və Məcnun, Nizami fəlsəfəsi, ədəbiyyatda mövla anlayışı

*Giriş:*

İnsanı ucaldan, ülviləşdirən əxlaqi dəyərlər içində sevginin xüsusi yeri vardır. Sevgi və eşq həmçinin təsəvvüf ədəbiyyatımızın olmazsa olmazlarından sayılır. Çünki irfan və təsəvvüfün kökü Peyğəmbərimizə (səv), pak Əhli-Beytinə və əshabına gedib çıxır. Əlbəttə ki, təsəvvüf sonradan ortaya çıxan bir "icad" deyil, fitrət dini olan İslamın bağrında daşıdığı önəmli bir dəyərdir. Odur ki, eşq, sevgi, zöhd, təqva, irfan və s. mövzular bəşər övladını böyük həqiqətin axtarışına cəlb edir. Allaha doğru getmək – bizə şah damarımızdan daha yaxın olana üz tutmaq üçün – böyüklər bu mənbələrə baş vurublar. Əlbəttə, başda vəhy olmaq şərti ilə Nəbilər Nəbisinin həyatı sevginin, mərhəmətin, ədalətin və s. örnəkləri ilə doludur. O, (səv) canlı bir Qurandır. İrfan həyatının zirvəsini uca əxlaqı ilə qazanıb və yaşayaraq təmsil edib. Zöhd inancını, sadəlik ruhunu, təvazö və ixlas kimi dəyərləri Onun (səv) həyatında ən bariz şəkildə görə bilərik. Qurani-Kərimdə buyurulur:

"لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ"

"Həqiqətən, Allahın Rəsulunda sizin üçün gözəl örnək vardır." Əhzab, 21

Dahi Nizami Gəncəvi də vəhydən ilham alaraq Peyğəmbərimizin vəsfini bu misralarla dilə gətirir:

Ey varlıq mülkünə böyük şahsüvar,
Əqlin sultanısan, zəka vətin var.
Sonusan o mürsəl peyğəmbərlərin,
Sonun halvasısan, duzu əvvəlin.
Varlıq bağçasının ilk gülü sənsən,
Zamanın sonuncu sərkərdəsisən.
Kifayət mülkünə sənsən hökmüdar,
Vilayət hökmüdür verdiyin qərar.
Hər kəs lovğalıqla çıxsa qarşına,
Bir ədəb qılıncı enər başına.
Leyli və Məcnun, səh. 20, Milli Kitabxana

Baxın, görün ki, Rəhman olan Rəbbimiz kimi tövsiyə edir. Son seçdiyi Nəbisinin (səv) həyatını nümayiş etdirir. "Rəsulda gözəl nümunə vardır" – deyir. Buradan görünən odur ki, İslam kimi nəhəng bir din Onun (səv) ali əxlaqı ilə bəşəriyyətə təqdim olunur. Onun misilsiz ədəbi-təsəvvüf əxlaqının ruhunu təşkil edir. Bəli, kainat məktəbinin böyük müəllimi Həzrət Muhəmmədə (səv) dünyanın hər yerindən tələbəlik edən şəxsiyyətlər olmuşdur. Onlardan biri də gözəl vətənimizdə, Azərbaycanımızda doğulmuş, yaşayıb-yaratmış Şeyx Nizamidir. Gəncədə dünyaya göz açmış, könlünə ilham edilən əsərləri ilə minlərlə insanın haqqa gözlərini açmış Nizami!

Artıq məqsədimizə dönək! Gəlin, Leylaları Onun dilindən tanıyaq, Onun ruhaniyyəti ilə tək olan Mövlaya üz tutaq!

Sən ey yeddi göyü yaradan qüdrət
Hamımız bir sənin bəndənik, əlbət.
Kainat adlanır qurduğun əsər,
Sənin əlaltındır altı cəhətlər.
Sən o varlıqsan ki, kəc baxsa insan,
Bir dəmdə kor olar gözləri, inan.

Leyli və Məcnun, səh. 173, Milli Kitabxana

Burada görürük ki, Şeyxin "Xəmsə"sində əsas xətlər nədən ibarətdir. Əlbəttə ki, birinci tövhid – Yaradanın təkliyidir. Şeyx münacatları dilə gətirir, nübuvvəti – peyğəmbərlik məktəbini vəsf edir. Raşidi xəlifələrin fəzilətlərini qabardır. Xüsusən də hər əsərində Allahın adı ilə sözə başlayır:

Ey adı ən gözəl başlanğıc olan,
Adınla başlanır yazdığım dastan.
Sən, ey xatirəsi könlümə həmdəm,
Adın düşməmişdir dilimdən bir dəm.
Bütün varlıqları özün yaratdın,
Bağlı qapılara açardır adın.
Adının qərarı olmadan əvvəl,
Qələm tutmamışdır dünyada bir əl.

Bu kiçik beytlə başlayan Nizami ölməz əsərini Allahın adı ilə ərsəyə gətirir. İnsanın sevgi hekayəsini "Leyli və Məcnun"da ən gözəl şəkildə tərənnüm edir. "Leyli və Məcnun" poeması 1188-ci ildə qələmə alınıb. Şeyx ərəb əfsanəsini dirildib ölməz əsərə çevrib. Qeysin – Məcnunun nakam məhbbətini kamilləşdirib. Leyliyə də bir şəxsiyyət qazandırıb. Onu da qeyd edək ki, poema Əbu əl-Müzəffər Şahənşaha həsr olunmuşdur. 4600 beytlə sözdən misilsiz bir saray inşa etmişdir. Romantik poemanı "udri" janrında yazmış və qarşılıqsız məhəbbətin ruhunu ortaya qoymuşdur. Bədəvi ərəb əfsanəsini fars dilinin incəlikləri ilə vəsf etmişdir.

"Leyli və Məcnun" "Xəmsə"nin üçüncü poemasıdır. Nizami Gəncəvi bu qədim məhəbbət əfsanəsinə ustad qələmi ilə bəzək vurmuş, onu bədii yüksəkliyə qaldırmışdır. Şairin yaratdığı bu məhəbbət dastanı dünya ədəbiyyatı xəzinəsinin ən qiymətli incisinə çevrilmişdir.

Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, "Lider Nəşriyyat", 2004, 288 səh.

Yeri gəlmişkən, böyük ustadın ana dilində yazılarını bir iqtibas ilə xatırlayaq: "XII əsrdə Nizami Gəncəvinin Şirvanşah Axsitandan "Leyli və Məcnun" əsərinin fars dilində yazılması sifarişini alarkən düşdüyü vəziyyət, doğma ana dilinin sıxışdırılması haqqında söylədiyi beytlər danılmaz faktdır. Təsadüfi deyil ki, görkəmli şərqşünas-alim Əbdürrəhman Tahircanov məsələ ətrafında tədqiqat apararkən qeyd edirdi ki, "Nizami Gəncəvi ilk öncə özünün Türkcə Divanını Şirvanşah Axsitana göndərmiş və onu "öz Divanının hamisi" adlandırmışdır. Odur ki, Şirvanşah Nizamiyə "Leyli və Məcnun" əsərini farsca yazmağı sifariş edərkən şair türkcə şeirlərinin yayılmaması qayğısından məyus olmuşdur".

Şeyxin xəyal və ruhani gücü o qədər qüvvətlidir ki, təkcə maddi kainatı deyil, metafizik aləmlərə qədər gedib çıxır. Bütün bunlarla yanaşı, dili sadə, axıcı və anlaşılandır. Yaradıcı ruhu isə misli olmayan, bənzərsiz bir üslubda gerçəkləşib.

Əgər dərd üzündən qulun Nizami
Sənə yalvardısa, tut ilticami.
Dəryandan yüksələn bulut bil məni,
Yağsam da, boşaltma bu xəzinəni.

Yüz lüğət yaradıb, yazsa yüz əsər,
Hər sözün başında səni təriflər.
O, yüz min üzr ilə qapında durar,
Bilir ki, boynunda min günahı var.
O, bütün dərdini danışmaz ki,
Sən lalların dilini yaxşı bilənsən.

Digər əsərlərində olduğu kimi Şeyx Nizami oxucusunu ilahi eşqin, ilahi ədalətin işığına dəvət edir. Hər beytində ibrət, hər sətrində dərs verir. Qurani-Kərimin pəncərəsindən həyatına nəzər etdiyimizdə bir aşiqin izdirabını müşahidə edirik. Şeyx imanı və irfanı ilə yaşamışdır. Qəlbinin qapılarını Haqqa açmış və Ondan (c.c) tükənməz ilhamlar almışdır...

"وَالَّذِينَ آمَنُوا أَشَدُّ حُبًّا لِلَّهِ"

“İman gətirənlər isə Allaha ən güclü məhəbbətlə bağlanarlar.” Bəqərə, 165.

Qəlbi diri saxlayan ən önəmli mənəvi qida ilahi eşqdir. Eşqə bürünmüş qəlb hərəmullah – Allahın hərəmidir. Belə bir hərəmi daşıyan aşiq isə “siratul-müstəqim”ə – doğru yola üz tutar və mükafatlanar. İmana qərq olduqca ilahi sədanı tərənnüm edər. Beləcə həqiqi sevgiyə – əl-Vədud olan Allaha yönələr. Həqiqi sevgi əbədi dəyərdir. Sevən sevdiyinə bənzəməyə can atar. Sevən sevdiyini incitməz. Ayədə deyildiyi kimi, iman etmək öncə Rəhmanı sevməkdir. Varlıq aləmindən bəqa aləminə boylanmaqdır. İnsanı insan edən əmanət yükünə sahib çıxmaqdır. Bəli, sevgini anlamayanların dünyanı qan gölünə çevirdiyini bəyan edən Şeyx yaradıcılığının dərinliyində Həzrət İnsanın aliliyini göstərir. Bu ucalığın ilk şərtini isə dürüstlükdə görür. Doğru niyyəti, doğru düşüncəni və xeyirli əməlləri təbliğ edir. Hər bir müşkülünü ümid günəşi olan Muhəmmədi (səv) ruhda əridir. Şeyxin sevgi dastanı oxucunu tövhid aləminə yönəldir. Vəhdətə itaət etdirərək Xızır çeşməsinə gətirir. Əbədiyyət suyunu içirdir. Əlbəttə bu gerçəklikləri bilmək gözəldir, amma anlamaq, anlatmaq və yaşamaq ondan da gözəldir. Həzrət Yusif də atasının qucağında dəyərli bir uşaq idi. Lakin qədər Onu da imtahanlar girdabına saldı, sınadı. Quyulardan çıxardıb iftira məkanlarına apardı. Nəhayət, Misirə əziz etdi. Deməli, Yaradan bir nemət vermək üçün bir çətinliyi önümüzə çıxarır. Bəli, Rəbbimiz ya ədalət, ya da ehsan edər. Lakin qullarına əsla zülm etməz. Ona görə də zalımları sevməz. Şeyxin əsərləri başdan sona qədər bir tərbiyə ruhunu daşıyır. Əqli, nəfsi, ruhu tərbiyə edir. Yeri gəlir mürşid, yeri gəlir mürəbbi, yeri gəlir mürid olur. Bəzən aşiq kimi davranır, bəzən də bir arif kimi sözə davam edir.

*Leyladan Mövlaya gedən yol*

Könül kəbəsini təvaf edən mələklər olduğu kimi, onu yıxmaq və dağıtmaq üçün pusquda dayanan iblis sevdalıları da mövcuddur. Bu cahanda fitnə qasırğaları ilə savaşan, mübarizə əzmlərini qırmadan mücadilə edən zatlar təkcə mənəvi dünyalarını deyil, həm də bərzəx aləminin qaranlıq zindanlarını da işıqlandırarlar. Ona görə də yolun başlanğıcında qərar verməliyik! Vəhyi, mənəvi aləmin baharını seçəcəyik, yoxsa qaranlıqları ağuşuna alan tək dünyanımı? Beləcə iradəmizlə verdiyimiz qərardan sonra ya könül evimizi nur məbədinə, ya da şər qərargahına çevirəcəyik. Bəli, insan həqiqəti tanıdığı qədər sevər, sevdiyi qədər də qoruyar. Bu fikirləri əsas alaraq mövzumuza keçək!

Məcnun Leylaya vuruldu, könül verdi və qəlbinin qapılarını ona açdı. Ona məftun olaraq sevdalandı. Bu eşq yolunda gecə-gündüz demədən yanıb-yaxıldı və iztirab çəkdi. Lakin böyük Nizami əsərində Leyla pərdəsini qaldırmaqla Mövla yolunu göstərir. Leyladan başlayan yol Rəhmana yönəlir və Onda sonlanır. Kainatın fəxri Peyğəmbərimiz (səv) buyurur:

"إِنَّ اللهَ جَمِيلٌ يُحِبُّ الْجَمَالَ"

“Allah gözəldir və gözəli sevir.” Hədis, Müslim. İnsanın bir surətdə, bir çiçəkdə, bir seyrdə gördüyü gözəllik, Allahın camalından bir işarədir. O işarələri, rəmzləri anladan Şeyx “Leyli və Məcnun” əsərində insanlıq karvanına istiqamət verir. Sözün qüdrətinə inanan Nizami Gəncəvi hikmət pıçıltıları ilə tarixi keçmişi istiqbala calayır. Əsirləri əsərləri ilə birləşdirir, necə ki, sevənləri də könülləri ilə; bir sözlə, ağlın kəfənini ruha ehram edir. Həyatda hər şeyin qədər ipindən asılı olduğunu hayqırır. Bu böyük dəvətə qulaq verməyənlərin aqibətinin qaranlıqlar içərisində olduğunu anladır. Bəli, Şeyx vüsləti də, hicranı da, hicrəti də sevdirir. Burada üzümüzü elm qapısına yönəldək! Həzrət Əliyə (ə) qulaq verək:

"مَا رَأَيْتُ شَيْئاً إِلَّا وَرَأَيْتُ اللهَ قَبْلَهُ وَبَعْدَهُ وَمَعَهُ"

“Mən Allahdan qabaq, Onunla bərabər və Ondan sonra heç bir şey görmədim”.

**Biharül-Ənvar**, Məclisi, cild 84, səh. 199

Bəli, burada İmam eşqin son məqamına işarə edir. İlahi təcəllilərə nəzər salır. Uzun yola çıxan müsafirə Yaradanla bərabərliyi bəyan edir.

Məcnun Leylada Allahı görə bilmədi, amma Şeyx ona arifanə olaraq Onu (c.c) göstərir. Məcnunu eşqin atəşində yandırır və paklaşdırır. Eşqdəki dəli-divanəliyi aşaraq Rəbbə yaxınlaşmağa qərar verir. Ağlın qərarı adamı bir yerə qədər gətirər, amma imanın nuru ilə qəlb onu həqiqətə aparar.

Qurani-Kərimdə belə buyurulur:

"يَا أَيُّهَا الْإِنسَانُ إِنَّكَ كَادِحٌ إِلَىٰ رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ"

“Ey insan! Sən Rəbbinə doğru çalışaraq gedirsən və Onunla qarşılaşacaqsan.” İnşiqaq, 6

Allah dünyanı və içindəkiləri imtahan xəlbiri ilə ələyər. Gecə-gündüz demədən, meydanı genişləndirər, ələdikcə mömini münafiqdən ayırar. Kainatı genişləndirdiyi kimi, inanan insanların da təfəkkürünü, düşüncələrini genişləndirər. Bir sözlə, kainatın genişlənməsi ilə qulları da yeniləmək istər. Beləcə, imtahan məkanını iman şahidliyinə çevirər. İnsana özünü tanıdar, nəfsini göstərər və imanını qüvvətləndirər. Sadiqlərlə xainləri bir-birindən ayırar. Ələk torundan yalnız ixlaslıları çıxarar. Odur ki, Yaradan yalnız Ona dost olanları seçər. Sirləri ilham yolu ilə onlara açar, həqiqətləri onlara yükləyər. Onları danışdırmağı sevər.

Gəmim qərq olmamış qanlı sularda,
Rəhm et, əlimdən tut, qalmayım darda.
Qaldır yıxılmışı bu qara yerdən,
Məni cəhl atından özün düşür sən,
İlahi, dar gündə sən ol həmdəmim,
İstədiyin yerə çatsın qədəmim.
Aç mənim üzümə nur xəzinəni,
Zülmətlər içindən xilas et məni.

*Leyli və Məcnun, səhifə 18*

Bu gün bizim yolumuzda da qaçılmaz bir şəkildə sınaqlar vardır. Yaxşı anlayırıq ki, kainatda var olan hər şey Allaha doğru hərəkətdədir. Bəzilərimiz necə? Bu yoldakı əngəl və məşəqqətlərin hikmətini və nə üçün cərəyan etdiyini idrak edə bilirikmi? Sərvət sərxoşluğu, kürsü sevdası, şəhvət düşkünlüyü və s. nəfsani istəklər… Kimin eşqi, sevdası və niyyəti Leylalarda ilişib qalırsa, özü də yollarda çaşıb qalar. Kimin eşqi Mövlayadırsa, hicrətdən vüsala, həsrətdən liqaya – görüşədirsə, onda Rəbbə qovuşar. Beləcə, qul nəfsin divarlarını aşaraq, “mütməinnə” – “riza məqamı”na çata bilər.

Eşq... Haqq dostlarının həyatlarını həsr etdiyi bir ibarədir. Aşiq və Məşuq cütlüyü ortaya çıxınca mənzərə dəyişir. Çünki eşq, sevgi və məhəbbət insanlıq ailəsinin tanıdığı anlayışlardır. Eşqin mehrabı alidir. Oraya yüksəlmək çilə ilə mümkündür. Leylaya gəlincə, fanilik onunla başlayır. O, əbədi olmayanların simvoludur. Ona görə də aşiq fəna fillahı – Allahda yox olmağı, əslində, əbədiləşməni tərcih edir. Hər kəlimə xarakterik özəllikləri ilə özünü əks etdirir. Leyli bir az da “Leyl” sözünü xatırladır. Ərəbcə “gecə” deməkdir. Kimliyi bəlli olmayan, üzəri örtülü mənasını verir. Səhradakı ilğımı, sərabı xatırladır. Gecənin ruhunda qorxu, ürkü və əndişə olur. Gecə isə dünyamızda ətəyi ilə hər şeyi örtür. Bu zaman səmada ulduzlar görünür. Ancaq günəş doğunca yox olub gedir. Leyli də gecə ulduzuna oxşayır. Gerçək eşq doğunca o, yoxluğa qarışar. Arxada ümid işıqları qalar. Məcnuna gəlincə, O, da “faniyəm” deyir. “Acizəm, acizlərdən əs-Samədə üz tuturam” – söyləyir. Ehtiyaclı olduğunu izhar edərək, kimliyini bəyan edir. Bəli, Şeyxin dilində eşqdən bir beyt dinləyək...

Eşq ilə yaşayır aləmdə səsim,
Eşqsiz aləmdə batar nəfəsim.
Eşqdən yoğrulmuş ruhum, bədənim,
Eşqsiz bir günüm olmasın mənim.

Gün gələcək, bu həyatdan ayrılacağıq. Əcəl adında bir qonaqla üzləşəcəyik. Leyli də öləcək, Məcnun da... Züleyxalar da köç edəcək, Yusif də. Hamı uca Dosta qovuşacaq. Bu ölümlü dünyada elə dərdlər var ki, nə gecəyə sığar, nə də gündüzə. Ayrılıq, yoxsulluq, ən böyüyü isə ölümdür. Bəlkə də ayrılıq ölümdən də betərdir, uzaq qalmaq nə böyük aləmdir. Şeyx Nizami:

“Ölüm deyil, dərd ilə hicran öldürür,
Ömrü kəsən ayrılıq, hicran öldürür.”

Nə qədər ki, insan ehtirasların, qürur və həsədin əsiridir, o heç vaxt hürr olmaz. Azad olmayan da heç zaman nə həqiqətin, nə də cahanın gerçək simasını görə bilməz. Bax elə ona görə də cahanda savaşlar bitmir. İnsan burada olanları əbədi hesab edir və onun mücadiləsini güdür. Məsələyə Allahın kəlam isminin təcəllisi olan Quran pəncərəsindən baxaq!

وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلَّا مَتَاعُ الْغُرُور

“Bu dünya həyatı yalnızca aldadıcı bir faydadan ibarətdir.” Ali -İmran 185

İnsanlıq təfəkkürdən uzaqlaşdıqca tənəzzül başlayır. Qəflət, cəhalət, korluq və darlıqlar çoxalır, cəmiyyətdə zülm və istibdad hökm sürür. Fanilər qapıları döyür, canilər ömürləri zay edir. Cahan qan gölünü xatırladır. Zülm ərşə dirənir.

Düşünmək, idrak etmək isə böyük nemətlərdəndir. Dərk zəkaya verilmiş nurdur. Bu işıq, bu rəbbani ziya sönərsə, qəlbin gözləri tutular. Həyat mənasızlaşar, nəfsani hisslər böyüyər və ruh zəncirlənər. Batil haqqa meydan oxumağa cürət edər. Cəmiyyətdə biganəlik, iki üzlülük, həsəd və ədavət qalınlaşar. Haqqın səsi boğular, sevgi və eşq çarmıxa çəkilər. Beləcə, toplum öz qəbrini öz əlləri ilə qazmağa hazır olar. Könüllər Sultanı Həzrət Peyğəmbər (səv) belə buyurmuşdur:

«لَيْسَ لِلإِنْسَانِ شَرٌّ مِنْ طُولِ الْأَمَلِ، يُنْسِيهِ الآخِرَةَ»

“İnsanın ən pis xüsusiyyəti uzun arzulara qapılmasıdır; bu, ona axirəti unutdurar.” Kənzül-Ümmal, hədis 43161.

Ağıl saf bilgi, qəlb gerçək eşqlə bəslənmədikcə, beyində və könüldə fanilik havası püskürər. Əgər qəlbimizin yaşamasını və yenilənməsini istəyiriksə, onu sahibinə – Rəbbinə təslim etməliyik. Axı onu bizə əta edən ruhun qərargahı kimi var edib. İman məhz həmin qəlbin səmasında günəş kimi doğar. Leyladan Mövlaya uzun və böyük səyahətin məqsədi burada anlaşılar...

Həyatımızın ən ülvi dəyəri sevgidir. Ömrümüzün ən gözəl günləri eşqlə keçən anlardır. Eşq bəndəyə istiqamətdə qalma gücü verər. Ona insanlığın zirvəsinə yelkən açma qüdrəti bağışlayar. İradəni böyük iradəyə – Haqqa bağlayar. Dünyəvi məhdudiyyətlərdən uzaqlaşdırar. Sevgi insanı öz dar məhdudluğundan çıxarıb başqa bir varlığın iç dünyasına aparar. Beləcə, eşq sevdalı şəxsi beynin divarlarından çıxarar, dünyanın hüdudlarından aşıraraq onu kainata çəkər. Daha sonra kainatın hüdudlarından keçirərək aləmlərə müsafir edər. Nəhayət, varlığı seyr etdirdikdən sonra onu yenidən fitrətinə – qədərin divarları arasına yönəldər və orada hürr bəndə olaraq yaşadar. Bizə şah damarımızdan yaxın olan Rəbbə qovuşdurar.

"Əlbəttə ki, dosta sədaqət, qulluqda vəfa, məşəqqət zamanında səbir aşiqlərin himməti olar. Həyat kitabı olan Quranda Rəbbimiz belə buyurur…

"إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَٰنُ وُدًّا"

"Həqiqətən, iman gətirən və saleh əməllər edənlər üçün Rəhman (Allah) sevgi yaradacaqdır."
Məryəm, 96.

Sevgi də həddi olan bir hissdir. Onun sərhədlərindən sonra eşq başlayar. Eşq də ilahi bir lütfdür. Xaliq ilə məxluq arasında sarsılmaz körpüdür. Eşqlə yaşamaq kamilliyin rəmzidir. Ona görə də aşiqlərin nəzərində kainat daha fərqli naxışları ilə görünür. Axı kainatın mayası sevgidir, bütün varlığın ruhunda eşqin izi mövcuddur. Deməli, sevgi əslinə dönərsə, yəni əl-Vəduda qayıdarsa, onda əbədiləşər və insanı sonsuz aləmə daşıyar. Əbədiləşən sevgi eşqlə davam edər. Gözün sevgisi ilə könlün sevgisini bir-birindən ayırar. Başdakı gözün sevgisi maddi aləmi ehtiva edərkən, könül sevdası maddi aləmi aşaraq bütün leylaları tərk edib Mövlaya aparar. Şeyxin dilindən dinləyək:

"Gözlə sevənlər gözün gördüyü çöhrəyə, zülfündə dolaşan küləyə, dodağın al rənginə vurular. Bu eşq göz bəbəyi ilə başlayar, amma tez də sönər. Çünki gözün pəncərəsindən daxil olan eşq, könül sarayına qədər yol tapa bilməz." İskəndərnamə.

Aşiqin dəfətrində Leyla bir aynadır. Aynada ilahi cəmal seyr edilər. Yaradanın təcəllilləri ruhun gerçək qidasıdır...

Eşqin zirvəsi əl-Vədud olan Allahdır. Böyük mütəfəkkir-Şeyxin ruhani və idrak gücünü müşahidə etdikcə, oxucunu fanilikdən xilas etdiyini bariz şəkildə görmək olur. O yeri gəldikcə batini yollarla sirli aləmləri göstərir. Rəhmət qapılarının yollarını irşad edir. Hər "məcnun" deyəndə, ruhu dərinliklərə səslənir. Leylinin zahiri surətindən aşaraq sevgi məcrasını eşqə çəkir. Bu gözəl mənzərəni uca kitabımızdan bir ayənin fonunda seyir etmək insana zövq verər.

"يُحِبُّهُمْ وَيُحِبُّونَهُ"

"Allah onları sevir, onlar da Allahı sevərlər." Məidə, 54

Gül üçün çalış ki, ona çatıb qoxlayasan. Yoxsa, ömrün tikanlarla hörülmüş divarlar içində ah-nalə ilə keçər. Allahı sevmək, ədalətli davranmaq və zülmə yox deməkdir. Bu zaman qul eşqin minbərindən xitaba başlar. Gəncəli Nizami tək o da türk dünyasını, İslam aləmini və insanlıq ailəsini sevindirən, düşündürən minbərə sahib olar. Məcnunu Leylinin qədəm basdığı torpağa deyil, torpaq üzərində səcdəyə gətirər. Torpağın əziz xatirəsini anladar. Adəmi, babamızı yada salar. Bu torpaq bizim üçün əzizdir. Çünki mücadilə ondan olan ilə ondan olmayanın arasında baş verib. İnsan torpaqdan, İblis isə oddan yaradılıb. Biri torpaq kimi mütəvazi, digəri isə atəş kimi yandırıcı. Bəli, aşiqlər təcəlli edənə baxar, həqiqətin aynasına üz tutar. Leylaların ayaq izlərinə ayaq basanlar isə eşqin həqiqətini idrak etmədən bir ömrü zay edərlər. Həyat kitabına dönək və yenidən baxışlarımızı təzələyək.

"وَمِنَ النَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ اللَّهِ أَندَادًا يُحِبُّونَهُمْ كَحُبِّ اللَّهِ"

"Bəzi insanlar Allahdan başqalarını Allahı sevdikləri kimi sevərlər..." Bəqərə, 165

Allahdan qeyrilərini nə üçün Allahı (c.c) sevər kimi sevirik? Bizi buna vadar edən nədir? Niyə sevərkən üzdə, gözdə, yanaqda qaldıq? Nə üçün dəridəki gözəllik bizi tutub saxlayır? Axı könül aləmi, ruh dünyası, vicdan kimi dəyərlər də mövcuddur. Elə ona görə də Şeyx oxucunu Rəbbin sonsuz camalına dəvət edir. Sevgi dəryasına əl-ayaqla deyil, ruh və qəlblə enməyi tövsiyə edir. Sahilə çıxmağın məşəqqətini anladır. Eşqin böyük səfərini, sevginin qəlbdəki gizli yollarını keçərək zahiri eşqdən ilahi eşqə uzanan yolu tərcih edir. Beləcə, dünyadakı səyahət səfərini Mövlada tamamlayır.

Adi sevgi vurğunu insanı dəli edər, səhralara salar. Ağlını alar, gözlərini kor edər. Nə ağlın sərhədlərini, nə də ruhani varlıqların hüdudlarını göstərər. Sevgidəki ilahi nuru duymadan sevmək də, sevilmək də surətdə qalmaqdır. Bu cür sevgi bir gün gələr sönər. Bu vasitəni vəsiləyə çevirə bilməməkdir. Hansı ki, bütün leylilər vasitədir. Gözəlliyin simasında camala tamaşa könlü işə qatmaqdır. Şeyxin eşq fəlsəfəsi o qədər güclüdür ki, sanki önündəki insana belə deyir: "gözlə sevib varlığını dustaq etmə". Qəlbinlə sev ki, ruhun azad olsun. O zaman təbəssüm də, göz yaşları da səmimi olar. Təbəssüm sədəqəyə, göz yaşları da ruha məlhəm olar. Onda gözün gördüyü, qulağın eşitdiyi, dodağın dad aldığı hər şey rəngini dəyişər. Heç nə köhnəlməz və solmaz. Qurani-Kərimdə belə buyrulur:

"...زُيِّنَ لِلنَّاسِ حُبُّ الشَّهَوَاتِ مِنَ النِّسَاءِ وَالْبَنِينَ وَالْقَنَاطِيرِ الْمُقَنْطَرَةِ"

"Qadınlara, oğullara, yığılmış qızıl-gümüşə məhəbbət insanlara gözəl göstərildi..." Ali-İmran, 14.

Qadın ilahi rəhmin daşıyıcısıdır. Ana olduqdan sonra isə şəfqətin abidəsinə çevrilir. Şəfqət isə incitməmək və fədakarlığın özüdür. Bu xislətlə xanım Yaradıcı qüdrətin təcəllilərini daşıyan bəndə olur. Lakin nəfsani baxışda qadın maddi və cismani ləzzəti xatırladır. Ayədə övlad sevgisindən də bəhs olunur. Övlad sevgisi əbədilik arzusunun simvoludur. İnsan genini onunla yaşadır. İmansız övlad isə Hz. Nuhun oğlunu yada salır. Asi, dünyapərəst və aldadılmış... Qızıl-gümüşə gəlincə, bunlar dünya həyatının ziynətidir. Bunlara bağlanan adamı əsir edərək iblisə təhfil verər. Belə birsi nə Haqqın kölgəsini düşünə, nə də ədalətin nurunu görə bilər. Bəli, adəm oğlu nə qədər ki, yaradanına yaxınlaşma meyli var, Allah ona yol açar. Onu öz aynalarından bir ayna edər. Bu nəzərlə Leyli də, övlad da, sərvət də sevilər, amma qəlbə qoyulmaz.

İnsan şərə qalib gələrkən Allah yolunda xidmətə başlar. İnfaq edər, əl tutar, yardımlaşar, amma israf etməz. Nəfsin sevgisi isə eqodur, həsəddir. Ənaniyyət, kibr, üsyan, ədavət və kin kimi vasitələr onun silahıdır. Şeyxin yaradıcı dünyasında qəlbin sevgisini, ağlın və nəfsin sevgiləri bir-birindən ayırd edilir. Könül sevdikcə, ruh bəslənər. Nəfs sevərkən isə ruh çökər. Sevgi könüldə doğar, könüldə fidana çevrilər. Bir çiçək kimi açar, ətrafa ətir saçar. Mərhəmət suyu ilə canlı qalar. Nə qədər ki, könüldə mərhəmət olar, orada çiçəklər boy atar. Həyat kitabı bizə belə söyləyir:

"إِنَّ فِي ذَٰلِكَ لَذِكْرَىٰ لِمَن كَانَ لَهُ قَلْبٌ"

"Həqiqətən bunda, qəlbi (canlı olan) üçün ibrət vardır." Qaf, 37

Quran başdan sona qədər ədəbdir. Quran səmanın əxlaqıdır. Bəli, bu əxlaq kitabı qəlbdən də bəhs edir. Can daşıyan qəlbdən, iman yükünü götürən qəlbdən... Sevginin mərkəzi olan qəlbdən... Sevgnin toxumlarına həyat verən qəlb torpağından danışır. Bəli, həyat orada bahara çevrilər. Leylalar tərk olunca, dünya istəkləri qəlbdən atılınca, həqiqi sevgi doğular. Nəfsdən

sıyrılan, İblisdən qaçan, Dəccalldan uzaqlaşan Rəhmana qul olar. Qəlb onda Rəbbin sir qalasına dönər. Axı qəlb əmanətin otağı və imanın həramgahıdır. Yaradan öz nurunu bu evdə saxlayar. İnsanın ruh şəhəri də buradan işıqlanar. Yenə həyat kitabına yönələk:

"إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ"

Ancaq təmiz bir qəlblə Allahın hüzuruna gələn kimsə bundan istisnadır!" ." Şuəra, 89

Ən böyük düşmən içimizdəki nəfsdir. Bu bir hədisin ifadəsidir. Nəfs kiçik bir firon kimi daxili dünyamızı xarabalığa çəkər. Yer üzünün xəlifəsini əsir etməkdən məmnunluq duyar. Hürr düşüncəyə qarşı mücadilə edər. Nəfsin içində o qədər leylalar var ki, ona qələbə çalana Nəbilər Sultanı (səv) böyük cihadı qazanmış kimi göstərir. Bəli, insan malını, canını, məqamını sevir. Bunlar həddi aşanda, leylaya çevrilir. Yoxsa, Allah adına övlad sevilər, həyat sevilər, vətən sevilər... Şeyxin yaradıcı ruhunda könül leylası əslində Rəhmandır. Əbədi sevgi... Heç zaman tərk olunmayan sevda... Bəli, eşq Şeyximizin lisanında sonsuzluqda doğar və sonsuzluğa aparar. Vəhyin dili kimi danışar, insanlığı dirildər. Aşağıdakı beytlərdə isə meraca üz tutan Peyğəmbərimizi (səv) vəsf edir:

Bu fani dünyadan sən yüksələndə,
Sən, Ümmi-Haniyə qonaq gələndə
Cəbrayıl gətirdi sənə şad xəbər,
Dedi: - Qulluğuna hazırdır göylər,
Göylərdə mələklər səf-səf düzəlmiş,
Bütün göy aləmi seyrinə gəlmiş.

*Leyli Və Məcnun, səh 23.*

Nizaminin beytləri – kəlmə evləri vəfa, sülh, ədalət və sədaqət deyir. Dürüstlükdən bəhs edir. Şəri qamçılayır, zülmü, inadı, həsədi baltalıyır. Sonda anlayırıq ki, türk dünyasının batmayan günəşi – Nizami Gəncəvi "Leyli və Məcnun" poemasında sadəcə məhəbbət dastanı yazmır. İnsanlığın varlıq yolundakı mücadiləsini anladır. Nəfslə ruh arasındakı mübarizəni xarakterizə edir. Könüldə doğan həqiqətləri ehtiva edir. Ağlı zirvələrə dəvət edir. Vicdanı susmamağa çağırır. Hər kəliməsində ənaniyyəti tərk edərək mənliyi izhar edir. Qəlibləri aşaraq qəlblərə girməyi təlqin edir. Şeyxin qələmi səcdə halındadır, asi kəlmələri yazmır. Çöllərə düşən Məcnunu da tək buraxmır, təbiətin qoynunda ona tənhalığını unutdurur. Səhradakı heyvanlarla qurduğu münasibəti ilə fitrətdəki heyvani hissləri birləşdirir. Ona vicdanın səsini eşitdirmək üçün çiləli yolları qət etdirir. Leylaya gəlincə o, bir qadın surəti deyil. Həsrəti oyadan bir gül, hicrəti xatırladan bir oyanışdır. Qadınlıq obrazını xarakterizə edən Şeyxin saf düşüncəsində insan yer üzünün xəlifəsidir.

**"Qadın zatı pak və müqəddəsdir,**
**Onu alçaltmaq cahillərin işidir."**

*Xosrov və Şirin*

Şeyx imtahanlarla dolu bu dünyada nə yarı, nə də yaranı kirləndirir. Ruhun başına eşq tacını qoyur, nəfsin boynuna isə xidmət gəmini keçirir. Nəfsani bir məhəbbətlə başlayan dastanı ruhani eşqlə sonlandırır. Dünyadakı sevgiləri əslində Rəbbin eşqinə hazırlıq kimi təqdim edir...

**"Eşq tacıdır başa qoyulan,**
**Kim taxdısa, əbədi sultan oldu."**

*Leyli və Məcnun*

*Nəticə*

Oxuduqca görürük ki, Şeyxin dünya görüşündə eşq faciədən çıxıb ruhaniləşir. Bu ancaq Haqqı könüldən sevənlərin məqamıdır. Bu yolda olan bir çox böyükləmiz olmuşdur. Həllac Mənsurlar, Mövlana Cəlaləddin Rumilər, Məhəmməd Füzulilər, Əbdülqadir Gilanilər, İmadəddin Nəsimilər, İbrahim Gülşəni Bərdəilər, Nemətullah Naxçıvanilər, Seyid Yəhya Bakuvilər, Seyid Həmzə Qarabağilər, İsmail Siracəddin Kürdəmirilər və yüzlərlə könül insanlarını xatırlamaq mümkündür. Onların hər birinin lisanında eşq bədəni deyil, rəbbanidir. O qədər dəyərlidir ki, uğrunda canlar verirlir. Bəli, aşiqlər bir-birini gözəl tanıyar. Hər birinin söz süfrəsində misilsiz dad var. Onlara müsafir olanları ruhən və əqlən doyurarlar. Bəzən orada acılar içində bir həyat da seyr edirik. Bu acı nə qədər ağır olsa da, eşq acısı olduğu üçün o da zövq verir. Axı acı çəkmədən həqiqət qapısı açılmaz. Eşq həqiqətə gedən yoldur. Gerçək aşiqlərə bir cahan sərvət versən də, yollarından dönməzlər. Yeri gəlmişkən Şeyxin əsərlərini böyük zövqlə türk dilinə çevirən dəyərli ustad Nemət Yıldırıma da təşəkkürlərimizi ifa edirik. Əlləriniz dərd görməsin!

Cənnəti, camalullahı sevən birisi dünyanın sərvətlərinə bağlanmaz. Eşqin böyüklüyü isə çəkilən cəfada məxfidir. Bu cəfanın başlanğıcı isə güllərin Gülü – Həzrət Muhamməddir (səv). İki cahanın Sərvərini sevmək, ilahi sevginin adıdır. Bəli, ədəbi obrazlarda ifadə olunan böyük sevgi anlayışı, çəkilən cəfakeşlik sonsuz məhəbbətin, əbədi həqiqətin axtarışıdır və Nizami Gəncəvinin obrazlarında bu həqiqət öz ünvanını və cavabını gözəl şəkildə tapır. Ən gözəl “leylamız” Mövlamızdır. Rəbbinə sevərək qulluq edən əbədi cənnətini qazanar. Ona qulluqdan üz döndərən isə elə fani də qalar.

## ƏDƏBİYYAT


1. Quran. Əhzab surəsi, 21
2. Quran. Bəqərə surəsi, 165.
3. **Biharul-Ənvar**, Məclisi, cild 84, səh. 199.
4. Quran. İnşiqaq surəsi, 6.
5. Quran. Şuəra surəsi, 89.
6. Quran. Qaf surəsi, 37.
7. Quran. Ali-İmran surəsi, 14.
8. Quran. Bəqərə surəsi, 165.
9. Quran. Məidə surəsi, 54.
10. Quran. Məryəm surəsi, 96.
11. Kənzül-Ummal, həd. 43161.
12. Quran. Ali -İmran surəsi. 185.


***Ага ХАДЖИБЕЙЛИ***

## ОТ ЛЕЙЛЫ ДО МЕВЛАЙИ
## (Проявление важного мировоззрения в творчестве Низами Гянджеви)
## *РЕЗЮМЕ*

*Ключевые слова:* Низами Гянджеви, наследие Низами, Лейли и Меджнун, философия Низами, мавла в литературе

Представленный вашему вниманию анализ посвящен одной из важнейших и деликатных тем в истории человечества. Подобная литературоведческая концепция, получившая название «От Лейлы до Мевланы», привлекла внимание многих исследователей. Этот небольшой труд посвящен одному из самых священных чувств в мире человеческого сердца и души – любви и ее характеру. Чувству, о котором говорили, писали и с которым достигали высот мудрейшие существа человечества.

***Aga HAJIBEYLİ***

**FROM LEYLA TO MAULA**
**(A Manifestation of an Important Worldview in the Works of Nizami Ganjavi)**
***SUMMARY***

*Key words:* Nizami Ganjavi, Nizami's legacy, Leyli and Majnun, Nizami's philosophy, mawla in literature

This analysis is devoted to one of the most important and sensitive topics in human history. This literary critique, known as "From Leyla to Mevlana," has attracted the attention of many scholars. This short work is dedicated to one of the most sacred emotions in the human heart and soul - love and its nature. A feeling that has been spoken about, written about, and achieved greatness by the wisest human beings.

***Daxil oldu: 06.11.2025-ci il***